# SEVGİLİM

**Moderato**




Üzündə qaradır xalın, ay qaradır, qaradır xalın.
Əlində güllü dəsmalın, ay güllüdür güllü dəsmalın.
Can almaq istər xəyalın, ay tez eylə, tez eylə, tez eylə.
Yolunda candan keçərəm, sevgilim,
Ay eşqimizə and içərəm, sevgilim.

Bülbüləm boş dolanmaram, ay dolanmaram, dolanmaram,
Cəh-cəhimdən dayanmaram, ay dayanmaram, dayanmaram.
Hər bir gülə inanmaram, ay tez eylə, tez eylə, tez eylə.
Yolunda candan keçərəm, sevgilim,
Ay eşqimizə and içərəm, sevgilim.

Gül sənin tək deyil göyçək, ay deyil göyçək, deyil göyçək.
Eşitmişəm yalan-gerçək, ay eşitmişəm, yalan-gerçək.
Ara rəqiblər deyəcək, ay tez eylə, tez eylə, tez eylə.
Yolunda candan keçərəm, sevgilim,
Ay eşqimizə and içərəm, sevgilim.